COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

CCPE (2010) 1

Strasburq, 20 oktyabr 2010-cu il

# AVROPA PROKURORLARININ MƏŞVƏRƏTÇİ ŞURASI (CCPE)

## 5 №-li Rəy

## Prokurorluq və yuvenal ədliyyə

## BƏYANNAMƏSİ

**Bu Bəyannamə CCPE-nin 19-21 oktyabr 2010-cu il tarixlərində keçirilmiş 5-ci plenar iclasında qəbul edilmişdir.**

### *Giriş*

1. Avropa Prokurorlarının Məşvərətçi Şurası (CCPE) Nazirlər Komitəsinin 13 iyul 2005-ci il tarixli qərarı ilə prokurorluq xidməti ilə bağlı rəylərin hazırlanması və prokurorluğun cinayət ədliyyə sistemindəki rolu haqqında 6 oktyabr 2000-ci il tarixli Rec(2000) 19 saylı Tövsiyənin səmərəli şəkildə həyata keçirilməsi məqsədilə yaradılmışdır.

2. 2010-cu ildə Nazirlər Komitəsi yetkinlik yaşına çatmayanlar üçün ədalətli mühakimə sistemi haqqında 2 saylı Qərar çərçivəsində "yetkinlik yaşına çatmayanlar üçün ədalət mühakimə sistemində dövlət siyasəti prinsipləri" ilə bağlı rəyi qəbul etmək, proses ərzində, ondan əvvəl və sonra yetkinlik yaşına çatmayanların maraqlarının nəzərə alınmasına nəzarət etmək, yetkinlik yaşına çatmayanların hüquqları və ədalət mühakiməsi, eləcə də yetkinlik yaşına çatmayanların çıxışı haqqında onlara məlumat vermək haqqında CCPE-yə göstəriş vermişdir.

3. Dövlət ittihamçıları cəmiyyətin adından və onun maraqları üçün fəaliyyət göstərən dövlət rəsmiləri olmaqla, qanun pozuntusunun cinayət sanksiyasına cəlb olunması tələb olunan zaman qanunun tətbiq edilməsini təmin edir. Belə etməklə prokurorlar (2000) saylı Tövsiyəyə uyğun olaraq, şəxslərin hüquqları və cinayət ədalət mühakiməsi sisteminin səmərəliliyini nəzərə almalıdır.

4. Prokurorların rolu dövlətdən dövlətə əhəmiyyətli dərəcədə dəyişir və bu Rəyin məqsədi yetkinlik yaşına çatmayanlarla bağlı ədalət mühakiməsinə cəlb olunan bütün prokurorların fəaliyyətinə nəzarət etmək, dövlət ittihamçılarının cəlb

olunduğu və yetkinlik yaşına çatmayanlarla bağlı olan bütün proseslərdə hüquqpozan yetkinlik yaşına çatmayan, zərərçəkmiş və ya şahidin yetkinlik, həssaslıq və əqli qabiliyyəti kimi müəyyən fundamental prinsiplərini tətbiq etməkdir. Prosesin bütün mərhələlərində, yəni ibtidai istintaqdan əvvəl, dinləmə, qərar və yetkinlik yaşına çatmayanlarla bağlı qərarların icrası ərzində bu prinsiplərə əməl edilməlidir.

5. Yetkinlik yaşına çatmayanlarla bağlı hallarda prokurorlar bir tərəfdən cəmiyyətin maraqları və məqsədləri arasında müvafiq balansın saxlanılması, digər tərəfdən isə yetkinlik yaşına çatmayanların maraqları, xüsusi ehtiyacları və həssaslığına diqqət ayırmalıdırlar.

6. Prokurorların cinayət hüququ sahəsindən kənar səlahiyyətlərə malik olduğu dövlətlərdə (məsələn, ailə, qəyyumluq və inzibati hüquqlar) onlar bu rəydə qeyd edildiyi kimi yetkinlik yaşına çatmayanların xüsusi şəkildə mühafizəsi ilə bağlı fundamental hüquq və azadlıqları təşviq etməlidirlər.

7. Prokurorların səlahiyyətləri çərçivəsində və yerli qanunlara uyğun olduğu təqdirdə, aşağıdakı prinsiplər tətbiq edilir.

8. Azyaşlılarla bağlı bu rəydə qeyd edilən prinsiplər yetkinlik yaşına çatmayanlara də tətbiq oluna bilər.

9. Bundan əlavə, CCPE Dövlətlərin yetkinlik yaşına çatmayanların hüquqpozmalar etməsinə gətirib çıxaran digər sosial-iqtisadi problemlərlə (məsələn, evsizlik, işsizlik, təhsilsizlik) mübarizə apararaq tədbirlər görməsini zəruri hesab edir.

***İstinad edilən sənədlər***

10. CCPE bu mövzu ilə bağlı xüsusi sorğuya 37 üzv dövlətdən gələn cavablara əsasən hazırkı rəyi hazırlamışdır.

11. Hazırkı rəy bu məsələ ilə bağlı Məhkəmənin presedent hüququ da daxil olmaqla, universal və regional hüquqi sənədlərə əsaslanır.

12. CCPE həmçinin “Şəxslərin təqib olunmasında prokurorluğunun rolu” mövzusunda Avropa Baş Prokurorlarının (Moskva, 2006) 7-ci konfransının işi və yekunlarını nəzərə almışdır.

Cinayət təqibinin alternativləri haqqında 2 saylı, Prokurorluq orqanlarının cinayət hüququ sistemindən kənar rolu haqqında 3 saylı və Demokratik cəmiyyətdə hakimlər və prokurorların əlaqələri haqqında 4 saylı Rəylər.

***İfadələrin şərhi***

13. Hazırkı rəyə əsasən, CCPE sanksiyalar və tədbirlər və yetkinlik yaşına çatmayanların törətdiyi hüquqpozmalar ilə mübarizənin yeni yolları və ədalət mühakiməsinin rolu ilə bağlı (2003)20 saylı Tövsiyənin I bölməsinə uyğun olaraq, hüquqpozmaları törədən yetkinlik yaşına çatmayanlar üçün Avropa Qaydalarının (2008)11 saylı Tövsiyəsinin 21-ci bəndində qeyd edilən ifadələrə istinad edir:

(i) “Yeniyetmə/azyaşlı” dedikdə 18 yaşından aşağı şəxslər nəzərdə tutulur;

(ii) "Hüquq pozan yetkinlik yaşına çatmayanlar" dedikdə, yaşı 18-dən aşağı olan və hüquqpozma törətdiyi iddia edilən şəxs nəzərdə tutulur;

(iii) “Hüquqpozma" dedikdə, qanunu pozan, sanksiya nəzərdə tutan və cinayət məhkəməsi və ya digər hüquqi və ya inzibati hüquq orqanı tərəfindən həll edilən hər hansı hərəkət və ya hərəkətsizlik nəzərdə tutulur.

***Yetkinlik yaşına çatmayanlarla bağlı ədalət mühakiməsinin xüsusiyyətləri***

14. Bütün məhkəmə, hüquq-mühafizə qurumları və sosial subyektlər yetkinlik yaşına çatmayanlar üçün ədalət mühakiməsinə xüsusi diqqət ayırmalıdır. Bütün ədalət mühakiməsi sistemlərində prokuror hüquqpozmaya yol verən şəxsin yaşının az olmasını, bu səbəbdən məsuliyyət dərəcəsinin yüngülləşdirilə bilməsini nəzərə almalı və onun hüquqlarına xüsusi diqqət ayırmalıdır.

15. Müvafiq olduğu təqdirdə, aşağıdakı tədbirlər nəzərə alınmalıdır:

§ yetkinlik yaşına çatmayanlar tərəfindən təqdim olunan video və ya audio səsyazmalar uşaq psixoloqları, pedaqoqlar, sosial işçilər və ya digər ekspertlərin yardımı ilə yetkinlik yaşına çatmayanlarla keçirilən müsahibələr;

§ Yetkinlik yaşına çatmayan şəxsin valideyni və ya yaxın şəxsin iştirakı ilə keçirilən yetkinlik yaşına çatmayan şəxslərdən müsahibənin alınması və ya sosial xidmətlər;

§ xüsusilə azyaşlı uşaqlar üçün hazırlanmış sorğu otaqları. Yetkinlik yaşına çatmayan zərərçəkənlərlə aparılan müsahibələrin sayı mümkün qədər məhdud olmalıdır;

§ müsahibələr elə aparılmalıdır ki, təkrarən həmin şəxslərə zərər dəyməsin.

16. Prokurorlar, həssas olduqları üçün hüquqpozmalar etməyə meylli olan gənclərin belə halları törətməsinin qarşısını almaq yolunda tədbirləri təşviq etməyə çalışmalıdır. Valideynlərlə məsləhətləşmələr aparılmalı və onlar belə tədbirlərin icrasına cəlb edilməlidir.

17. Sanksiyalar zamanı sadəcə cinayət hüquqpozmaları və ya digər yanlış davranışlar cəzalandırılmamalı, təhsil, təlim, şəxsi mühit və yeniyetməlik yaşına çatmayanların şəxsiyyəti də nəzərə alınmalıdır. Yeniyetməlik yaşına çatmayanların azadlığını məhdudlaşdıran tədbirlər qanunla müəyyən edilir və cəmiyyəti qorumaq üçün zəruri olan tələblərlə məhdudlaşır.

18. Öz səlahiyyətlərinə uyğun olaraq, prokuror yetkinlik yaşına çatmayanların öz yaşlarına uyğun başa düşəcəkləri formada proseslərdə davranış qaydaları, məhkəmə iştirakçılarının rolu və onun üçün görülən tədbirlər haqqında zəruri məlumatları alması üçün yetkinlik yaşına çatmayan şəxsin qanunpozan, zərərçəkən və ya şahid qismində ədalət mühakiməsi sistemi ilə əlaqələrinə xüsusi diqqət yetirilməsini təmin etməlidir.

19. Yetkinlik yaşına çatmayanlarla öz səlahiyyətlərlərinin icrası üçün prokurorlar zəruri və müvafiq vasitələrə malik olmalı və belə vasitələr yetkinlik yaşına çatmayanların işi ilə məşğul olan digər səlahiyyətli qurumlara da şamil edilməlidir. Onlar üçün xüsusilə işəgötürmə, müvafiq təlim, eləcə də zəruri heyət, vasitələr və ixtisaslaşmış xidmətlər təmin edilməlidir. Bundan əlavə, üzv Dövlətlər yetkinlik

yaşına çatmayanların hüquqpozmaları üzrə ixtisaslaşmış qurumlar və ya vəzifəli şəxslərin təyin edilməsini nəzərdən keçirməlidir.

20. Yetkinlik yaşına çatmayanların cəlb olunduğu istintaq və ya təqib və digər proseslərdə prokurorlar vaxt çərçivəsinə xüsusi diqqət ayırmalı və belə hallara prioritet kimi yanaşıb əsassız gecikmələr olmadan aparılmasını təmin etməlidir. Uzadılmış proses törədilən hüquqpozmanın mənfi təsirini artıra və yetkinlik yaşına çatmayan qanunpozan və zərərçəkmişin bəraətinə mane ola bilər.

21. Prokurorlara məlum olmalıdır ki, beynəlxalq standartlara uyğun olaraq, azadlıqdan məhrum olmuş uşaqlar əsasən bir qayda olaraq yetkinlik yaşına çatanlardan ayrılmalı və öz valideynləri ilə əlaqə saxlamaq hüququna malik olmalıdır.

22. Cəmiyyət medianın ədalət mühakimə sisteminin fəaliyyəti ilə bağlı zəruri məlumatlarla təmin edilməsini tələb edir. Bununla belə, mediaya məlumatların təqdim edilməsi istintaq və digər prosedurlara cəlb olunan yetkinlik yaşına çatmayanlara zərər verə bilər. Bu səbəbdən, prokurorlar cəlb olunan yetkinlik yaşına çatmayanların hüquqlarını pozan və ya onlarda yaranmış mənfi fikirlərin artması ilə nəticələnən hər hansı məlumatların ifşa edilməməsi ilə bağlı məsuliyyətlərini dərk etməlidirlər.

23. Yetkinlik yaşına çatmayanlarla bağlı ədalət mühakiməsi mövzusu üzrə prokurorlar və beynəlxalq əməkdaşlar arasında təcrübə mübadiləsinin aparılması məsləhət görülür.

***Yetkinlik yaşına çatmayanlar ibtidai istintaqdan əvvəl***

24. Prosesə cəlb olunan yetkinlik yaşına çatmayanların vəziyyəti haqqında daha yaxşı məlumatlı olmaq məqsədilə, prokurorlar öz səlahiyyətləri çərçivəsində cinayət istintaqı mərhələsində (məsələn, polis, şərti azadlıq və sosial xidmətlər) əsas iştirakçıların əməkdaşlığında yaxından iştirak etməlidir.

25. Müvafiq olduğu təqdirdə prokurorlar cəlb olunan yetkinlik yaşına çatmayanların təqib edilib-edilməməsi ilə bağlı qərar verməzdən əvvəl sosial xidmətlərin məsləhətləri və azyaşlıların qorunması üzrə ixtisaslaşmış xidmətlərdən, eləcə də məhkəməyə hansı sanksiya və ya tədbirin təqdim edilməsindən əvvəl onların məsləhətindən yararlanmalıdırlar. Onlar həmçinin, lazım olduqda azyaşlılar və ekspertlər üçün xüsusi texniki dinləmə otaqlarından istifadə etməlidirlər (bax: yuxarıda 16. Bənd).

26. Cinayət və digər proseslərin yetkinlik yaşına çatmayanların gələcək inkişafı üzərindəki mənfi təsirini nəzərə alaraq, prokurorlar qanuna uyğun olaraq, yetkinlik yaşına çatmayan qanunpozanların təqibi üzrə alternativlər axtarmalı, zərərçəkənlər və ümumilikdə cəmiyyətin maraqlarını nəzərə almalı və yetkinlik yaşına çatmayanlar üçün ədalət mühakiməsinin məqsədlərinə əməl etməlidir.

27. Beynəlxalq standartlara uyğun olaraq, ibtidai istintaqdan əvvəl yetkinlik yaşına çatmayanların həbsə alınması sonuncu çıxış yolu kimi çox qısa müddətə istifadə edilməlidir. Yetkinlik yaşına çatmayanların məhkəmə işləri ilə məşğul olarkən, prokurorlar ibtidai istintaq öncəsi nisbətən az müdaxiləedici tədbirlər vasitəsilə həbsəalmanın əsaslarının əldə oluna bilməsini nəzərdən keçirərkən ehtiyatlı olmalı və elə etməlidirlər ki, yetkinlik yaşına çatmayanların ibtidai istintaq

öncəsi həbsəalınması belə həbsəalmanın mümkün mənfi nəticələrini aşağı sala bilən şərtlər altında baş tutsun.

28. Yetkinlik yaşına çatmayanların törətdikləri müxtəlif hüquqpozmalar üzrə göstərişlər və ya müvafiq tövsiyələr qanun qarşısında bərabərliyi təmin etmək üçün faydalı ola bilər.

***Yetkinlik yaşına çatmayanlar ibtidai istintaqda***

29. İbtidai istintaq zamanı yetkinlik yaşına çatmayanların rifahi və maraqlarını təmin etmək bütün prokurorların ortaq məqsədi olmalıdır. Prokurorlar qoruyucu yanaşmanın kömək edə biləcəyi təqdirdə cinayət prosesi ilə hüquqpozanlar, zərərçəkmişlər və şahidlərə dəyən hər hansı zərərləri azaltmağa çalışmalıdır.

30. Prokuror yetkinlik yaşına çatmayan şəxsə ona qarşı irəli sürülən ittihamlardan xəbərdar olmasını və cəlb olunduğu bütün məhkəmə proseslərində izahat verməsi və hüquqi yardım ala bilməsi üçün lazımi müdafiəsini, o cümlədən məhkəmə qarşısında sərbəst danışa bilməsini təmin etməlidir.

***Yetkinlik yaşına çatmayanlarla bağlı qərarların icra edilməsi***

31. Yetkinlik yaşına çatmayanların mühakiməsi ilə bağlı, prokurorlar öz səlahiyyətləri çərçivəsində zərərçəkmişin maraqları, ictimai maraq, yetkinlik yaşına çatmayanların maraqları, eləcə də cinayət ədalət mühakiməsinin məqsədlərini nəzərə alaraq, təhsil və sosiallaşdırma tədbirləri, eləcə də bəraət, təhsil, sosial xidmətlər tərəfindən nəzarət, müalicə, yetkinlik yaşına çatmayanlar üçün xüsusi müəssisələrdə yerləşdirmə, vasitəçilik, eləcə də yetkinlik yaşına çatmayanların sınaq müddəti və ya şərti azadlığa buraxılmasını təmin etmək üçün bütün mümkün vasitələrdən istifadə etməlidirlər.

32. Öz səlahiyyətləri çərçivəsində prokurorlar bütün sanksiyalar və tədbirlərin icrasının hüquqiliyinə, eləcə də yetkinlik yaşına çatmayanlar üzrə ixtisaslaşmış müəssisələrdə təhsilə nəzarət etməli və yetkinlik yaşına çatmayanlar üçün nəzərdə tutulan bütün ixtisaslaşmış penitensiar müəssisələrdə müntəzəm yoxlamaları həyata keçirməlidir. Belə yoxlamalar yetkinlik yaşına çatmayan şübhəlilərin ibtidai istintaq öncəsi həbsi üzrə qurumlara da şamil edilməlidir.

33. Öz səlahiyyətləri çərçivəsində olduğu təqdirdə, prokurorlar hüquqpozmalara yol verən və bu xüsusda tədbir və ya sanksiyalara məruz qalan yetkinlik yaşına çatmayanlara nəzarət edilməsini və yenidən hüquqpozmaları törətməsinin qarşısını almaqda onlara kömək etməlidir.

34. Üzv dövlətlər bu rəydə təsvir edildiyi kimi yetkinlik yaşına çatmayanların ədalət mühakiməsi ilə bağlı öz milli sistemlərində (2000)19 saylı Tövsiyənin icra edilməsinin müntəzəm şəkildə yoxlanılmasına cəlb edilməlidir.